# Elmi və kütləvi mədəni proqramlarda suverenliyimizin tam bərpası necə əks olunacaq...

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması

**Azərbaycan 30 ilə qədər elmi-kütləvi, mədəni-maarif proqramlarını məğlub, daha çox bədbin notlar üzərində hazırlayırdısa, 2020-ci ilin 44 günlük Zəfərlə başa çatan Vətən müharibəsi bu notları müsbətə doğru dəyişdi. Bu gün təhsil proqramlarında Vətən müharibəsi, qazandığımız Böyük Zəfər, Azərbaycan xalqının yeni tarixi, tarixi şəxsiyyətlərimiz haqqında daha geniş məlumatlar əks olunur.**

Çünki cəbhədə döyüşlər bitsə də, informasiya müharibəsində mübarizə hələ də davam edir və edəcək də. Bunun üçün cəmiyyətimiz daha da təkmilləşməli, dünyagörüşünü artırmalı, savadlanmalıdır. Bu məqsədlə də, əlbəttə ki, elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsi, hətta yenilərinin belə hazırlanması öz aktuallığını qoruyub saxlayır.

Azərbaycan Ordusunun suverenliyimizin bərpasına nail olmaq üçün göstərdiyi igidlik nümunələri elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarında özünü necə əks etdirməlidir ki, gələcək nəsillər bundan lazımi nümunələr götürsün?

### Əldə etdiyimiz qələbəni hərə öz anladığı şəkildə təqdim etməməlidir

Bu gün ölkəmizdə bu istiqamətdə mühüm addımlar atılır. Sirr deyil ki, Vətən müharibəsi, qazandığımız zəfərlər barədə daim tədbirlər keçirilir, nəşrlər olur. Yəni istər bədii yaradıcılıq, istər görüntü yaradıcılığı, istərsə də elmi-kütləvi tədbirlərin keçirilməsi baxımından önəmli işlər görülməkdədir. Xüsusən də, orta məktəblərdə şagirdlərin vətənpərvərlik ruhunun ayaqda tutulması, eləcə də digər təhsil müəssisələrində bu işlərin təşkili baxımından xeyli işlər həyata keçirilir. Əlbəttə ki, bu işlərin hamısını birmənalı təqdir etmək olmaz. Yaxud da ki, hamısının üzərindən birmənalı xətt çəkmək olmaz. Ona görə ki, hər kəs bacara bildiyi qədər, bildiyi səviyyədə bu işi görür. O baxımdan deyərdik ki, ümumi mənzərə əlbəttə, ürəkaçandır. Bu baxımdan, təqdirəlayiq bir durum var. Amma ümumi sistemləşdirilmə, ümumi proqramlaşdırmaya da ehtiyac var.

Bizim 44 günlük Vətən müharibəsində və son antiterror tədbirlərində əldə etdiyimiz qələbəni hərə öz anladığı şəkildə təqdim etməməlidir.

### Bir çox hallarda biz görürük ki...

Postmüharibə zamanında qalib Azərbaycan cəmiyyətinin daha çox maariflənməsinə, yeni bilgilər, informasiyalarla təmin olunmasına böyük ehtiyac var. Vətən müharibəsindən, Azərbaycanın qələbəsindən, zəfərindən sonra davamlı olaraq elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması üzərində ciddi şəkildə işlənilməlidir. Cəbhədə qalib gəldiyimiz kimi, informasiya müharibəsində də qələbə qazanmağa davam etməliyik. Bunun üçün cəmiyyətimiz daha da təkmilləşməli, dünya görüşü artırılmalı, savadlanmalı, istər Azərbaycan cəmiyyəti, istərsə də bütövlükdə dünya ictimaiyyəti hərtərəfli informasiya ilə təmin edilməlidir. Bu məqsədlə də elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının inkişaf etdirilməsi, hətta yenilərinin belə hazırlanması öz aktuallığını qoruyur.



Azərbaycan Ordusunun rəşadəti, mübariz ruhu və bir çox məsələlər artıq proqram şəklində universitet və orta məktəblərdə tədris olunmalı, buna çox ciddi şəkildə xüsusi önəm verilməlidir. Bu baxımdan, proqramların hazırlanmasında mütəxəssis yanaşması, eləcə də rəyi mütləq nəzərə alınmalı, alimlərin, mədəniyyət xadimlərinin, təhsil ekspertlərinin imkan və potensialından istifadə edilməlidir. Postmünaqişə dövründə və bundan sonra həmrəyliyimizin və birliyimizin daha da güclənməsinə öz ciddi töhfəsini vermiş olacaq. Bir çox hallarda biz görürük ki, bu proqramların icrası, bu işlərin həyata keçirilməsi zamanı bu işin həvalə edildiyi müəssisələr, qurumlar bu prosesə peşəkarları cəlb etmək əvəzinə özlərinə yaxın olan adamları cəlb edirlər.

Bu cür məsələlərdə əsl istedadlı, savadlı şəxslərin, xüsusən də gənclərin əməyindən də yararlanmalıyıq.

### Müasir qəhrəmanlarımızı da nümunə kimi göstərməliyik

Qazanılan Zəfəri ideoloji-mənəvi konsepsiyaya, modern fikir texnologiyasına çevirmək günümüzün vacib tələblərindən biridir. Hər tərəfdən ideoloji-mənəvi basqılarla əhatələnmiş Azərbaycan gəncliyi üçün vətənsevərliyi bir ideoloji-ruhu fikir axınına çevirməklə, həm də Vətənimizin bütövlüyü uğrunda Qarabağda canından keçmiş, şəhidlikləri ilə tariximizin qızıl səhifələrini yazmış qəhrəmanlığın ənənəvi və yeni formatlarda təbliğinə çalışmalıyıq.

Vaxtilə Babəklər, Koroğlular, Xətailər, Həzilər kimi tarixi şəxsləri nümunə göstərərək yetişən nəslin yerində indi müasir qəhrəmanlarımızı da nümunə kimi göstərməliyik.

Mədəni və kütləvi tədbirlərdə biz gənc nəslin qəbul etdiyi modern, qısahəcmli, tez yaddaqalan ədəbi nümunələrin, vizual-virtual formatlı məhsullar ortaya qoymalıyıq. Vətən uğrunda həyatını qurban vermək kimi müqəddəs hissləri aşılayan II Qarabağ Zəfərini xalqımıza yaşadanların, xüsusən də Ali Baş Komandan İlham Əliyev başda olmaqla qəhrəmanlarımızın, şəhid və qazilərimizin igidliklərinin sənət dili ilə salnaməsini yaratmağı bacarmalıyıq.

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**